**Əliyev Ə.** Vətən uğrunda ölərəm // Xalq qəzeti. - 2023. - 28 noyabr. - **№ 259**. - S. 10.

**Oturub düşünsən bir az dərindən**
**Bu torpaqda ulu hər yan, hər yerdi.**
**Bu qədər dəyərsiz idisə Vətən,**
**Mübariz nə üçün canını verdi?!**

Bu misraları yazanda əsgər Əlikram Xanışovun heç 20 yaşı yox idi. Qonşu rayondan olan əfsanəvi Milli Qəhrəman Mübariz İbrahimov haqqında düşüncələrini qələmə almağa çalışmışdı. Elə bu duyğularla da onun yolunu davam etdirmək üçün müddətli hərbi xidmətdən cəmi 20 gün sonra müqavilə əsasında işləyən kiçik komandir heyətinə qəbul olunmuşdu.

Bir neçə ay keçməmiş Vətən müharibəsi başlananda həyatını hərb işinə həsr edən Əlikram sevinmişdi ki, nəhayət, işğalçılardan qisas almaq üçün fürsət yaranıb. Buna görə də ön cəbhədə mərdliklə döyüşür, azacıq sakitlik yaranan kimi isə qeyd dəftərçəsinə Vətənlə bağlı poetik duyğularını yazırdı:

**İnsan deyərəm mən sənə, haqqına can ver,**
**Gəl, saxlama öz haqqını pünhan ürəyində.**

Bəli, Vətən uğrunda şərəflə vuruşaraq ölmək onun amalı idi. Odur ki, döyüşlər başlanandan bir həftə sonra şəhadətə ucalması ilə sanki arzusuna qovuşdu Əlikram. "Əgər ölsəm, eləyin cismimə bayrağı kəfən", – deyən şəhid, arzuladığı kimi, üçrəngli Azərbaycan bayrağına bükülərək doğma Göytəpə şəhərinə gətirildi...

Əlikram Xanışov ölümündən sonra Prezident sərəncamları ilə "Cəsur döyüşçü", "Suqovuşanın azad olunmasına görə" və "Vətən uğrunda" medalları ilə təltif edilib. Cəlilabad Rayon Veteranlar Təşkilatının təşəbbüsü ilə çap olunan şeirlər kitabına isə onun müqəddəs məsləkinə uyğun ad qoyulub: "Vətən uğrunda ölərəm".

Cəlilabad şəhərindəki 3 nömrəli tam orta məktəbin geniş akt zalında şəhid şairin kitabının təqdimat mərasiminə toplaşanlar – hərbçi dostları, qazilər, əmək və müharibə veteranları, ictimaiyyət nümayəndələri, müəllim və şagirdlər öncə onun ölməz xatirəsinə baş əyiblər. Rayon Veteranlar Təşkilatının sədri – kitabın redaktoru və ön sözünün müəllifi, şair Ədalət Salman Vətən müharibəsi şəhidi Əlikramın həyat və döyüş yolu haqqında danışıb, onun fitri istedad sahibi kimi erkən yaşlarından yaradıcılıqla məşğul oldugunu bildirib. Qeyd edib ki, kitabdakı şeirlərin böyük əksəriyyəti vətənpərvərlik ruhunda yazılan nümunələrdir.

Vətən Müharibəsi Qəhrəmanı Rəşad Abdullayevin atası Arif Abdullayev, tanınmış mədəniyyət işçisi Xeyrulla Şahbazov, hərbçi mayor Elşən Abbasov, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin nümayəndəsi Cavidan Rəşidov, şəhidin döyüş yoldaşı Mirnatiq Cabbarlı, AYB üzvləri Əfrahim Abbas, İman Abdulla, Sakit İsayev, xeyriyyəçi sahibkar Rafiq Abışov və başqaları çıxış edərək torpaqlarımızın azadlığı uğrunda canını fəda etmiş şəhidlərimizin xatirəsinin həmişə əziz tutulduğunu, şəhid ailələrinə və qazilərə dövlətimizin daim diqqət və qayğı

göstərdiyi xüsusi vurğulayıblar. Şəhid Əlikram Xanışovun məktəblilərin ifasında səslənən şeirləri tədbir iştirakçılarına duyğulu anlar yaşadıb.

Şəhidin anası Xoşqədəm Xanışova kitabın nəşrini və təqdimatını təşkil etdiyinə görə rayon Veteranlar Təşkilatına və tədbir iştirakçılarına minnətdarlığını bildirib. Sonda şəhid Əlikram Xanışovun "Vətən uğrunda ölərəm" adlı kitabı tədbir iştirakçılarına hədiyyə olunub.